**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*əlyazması hüququnda*

**TOĞRUL VAQİF OĞLU ABBASOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏZA-İCRA QANUNVERİCİLİYİ VƏ BEYNƏLXALQ HÜQUQ

**İXTİSAS: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim olunmuş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI - 2014**

Dissertasiya işi AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV.**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru O.F.ƏFƏNDİYEV**

**hüquq üzrə fəlsəfə doktoru R.K.MƏMMƏDOV**

**Aparıcı təşkilat:** **AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsi**

Dissertasiya işinin müdafiəsi "11_" "_12_" 2014-cü il tarixdə saat "____" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 002 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_____________" 2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya Şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya işinin aktuallığı.** Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası (AR) demokratik prinsiplərə uyğun hüquqi, dünyəvi dövlət qurmaqla bərabər, qüvvədə olan qanunvericiliyini beynəlxalq-hüquqi normalara uyğunlaşdırmaq kimi mühüm məqsədi qarşısına qoymuşdur. Demokratik dəyərlərin həyata keçirildiyi vətəndaş cəmiyyətinin təşəkkül tapıb inkişaf etdirilməsi həmin ölkədə qanunların aliliyi, insanların hüquq və azadlıqlarının qorunması vəziyyətindən çox asılıdır. Respublikamızın başlıca strateji məqsədi isə mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.

Müasir dünyada iqtisadi, siyasi, sosial səviyyələrin müxtəlifliyinə baxmayaraq bütün dövlətlər insan hüquqları prinsiplərinə sadiqliyini bəyan edir. Siyasi liberallaşma və demokratikləşmə prosesinin genişlənməsi dövlətlərin fəaliyyətlərinin məhz bu prinsiplərə əsasən istiqamətləndirilməsini zərurətə çevirir. Bu və ya digər dövlətdə insan hüquqlarının qorunması və təmini üçün səmərəli addımlardan biri də insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlərin təsis edilməsidir[1]. İnsan hüquqlarının müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq, beynəlxalq və milli hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili qanunvericiliyinin qarşılıqlı əlaqəsi aktual problemlərdəndir[2]. Bu sahədə mühüm yer tutan beynəlxalq hüquq normaları bütün dünya dövlətlərinin konstitusiyaları, qanunları, hüquqi aktları üzərində güclü təsirə malikdir[3]. Eyni zamanda, qloballaşma dövründə insan hüquqlarının müdafiəsi mexanizmləri qarşılıqlı şəkildə fəaliyyət göstərməlidir. Bu mexanizmlərin fəaliyyəti isə qloballaşma prosesinə pozitiv impuls verir, həmin prosesin neqativ təsirlərini aradan qaldırmağa kömək edir[4].

Beləliklə, insan hüquq və azadlıqlarının tanınması və müdafiəsi vətəndaş cəmiyyətinin, hüquqi dövlətin ən əsas məqsədlərindən biridir. Respublikamızda demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır. Cəmiyyətin sabit inkişafı şəxsiyyətin azadlığı, cinayətkar qəsdlərdən qorunması, cəmiyyətdə cinayətkarlığın azaldılması, cəmiyyətin hər bir üzvünün (həm azadlıqda olan, həm də azadlıqdan məhrum olmuş və ya azadlığı məhdudlaşdırılan şəxslərin) əsas insan hüquq və azadlıqlarının təmin olunması şəraitində daha dayanıqlıdır. Bu meyar

[1] Kızılyel Serkan. Social Rights Enforcement: Is it possible to takle poverty though The Lens of International Human Rights Law. Law and Justice. Review. Vol. 1, Issue 3, Year 2, 2011, p. 171.
[2] Donnelly J. International Human Rights. Westview Press. University of Denver, 2007, p. 21-23.
[3] Murpy D.Sean. Principles of International Law. Concise Hornbook Series. Thomson West. 2006, p. 300.
[4] Карташкин В.А. Права человека: международная защита в условиях глобализации. М., 2009, с. 276-285.



insan hüquqlarının bazasını təşkil edir. AR Konstitusiyasının 12-ci maddənin 1-ci hissəsinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 2-ci hissəsinə görə isə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bütövlükdə, əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün AR Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən insan hüquqlarının daha real təmin edilməsi siyasəti dövlətimizdə özünün real nəticələrini verməklə beynəlxalq cəmiyyət tərəfindən də tam qəbul edilməkdədir.

Azərbaycan dövlətçiliyinin müasir inkişaf mərhələsi, ölkədə həyata keçirilən islahatlar, yenidənqurma işləri, yeni dövlətçilik institutlarının formalaşması ilə yanaşı, cəza-icra qanunvericiliyində də islahatlar aparılmasına şərait yaranmışdır. Ümumiyyətlə, ölkəmizdə hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin son dövrün tələbləri səviyyəsində qurulmasını, ədalət mühakiməsinin səmərəliyinin artırılmasını, vətəndaşların məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasını, regionlarda hüquq infrastrukturunun daha da genişləndirilməsini, yeni nəsil hüquqşünasların formalaşdırılmasını, cəza-icra siyasətinin humanistləşdirilməsini zəruri edir[5]. Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, hər bir dövlət öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək üçün daxili qanunvericilik sisteminin bu öhdəliklərə uyğun olmasını təmin etməlidir[6].

İnsan hüquqlarının müdafiəsi cəza-icra hüquq münasibətlərində özünü daha qabarıq şəkildə büruzə verir. Cəza cinayətkarlıqla əlaqəlidir, cəmiyyətin özünəməxsus patalogiyası, qanunauyğun məhsuludur, onu tamamilə ləğv etmək mümkün deyil, lakin nəzarətdə saxlamaq mümkündür. Cinayətkarlığı daha effektiv vasitələrlə azaltmaq və yekunda cəmiyyəti daha yaxşı nəzarətdə saxlamaq lazımdır ki, belə mənfi hallar təkrarlanmasın. Həm cinayətkarlığın azaldılması, həm də cəza-icra sistemində müsbət irəliləyişlər əldə etmək üçün bu sferada beynəlxalq normalardan, inkişaf etmiş ölkələrin müsbət təcrübəsindən yararlanmaq və milli cəza-icra hüquq sistemində köklü dəyişikliklər həyata keçirilməsi məqsədəmüvafiqdir.

Bu sahədə tanınmış hüquqşünas-alim İ.M.Rəhimov haqlı olaraq qeyd edir ki, cinayətkarlığın gələcək vəziyyəti və dinamikası həm məkan, həm də zaman kəsiyində dəqiq deyil, nisbidir. Çünki harada, nə vaxt və kim tərəfindən növbəti cinayətin törədilməsini əvvəlcədən bilmək mümkün deyildir. Eyni zamanda, statistik proqnozların həyata keçirilməsi ilə güman etmək mümkündür ki, ildən-ilə cinayətkarlıq hallarının müəyyən növləri təkrarlanacaqdır. Təbii ki, burada bəzi göstəricilərin dəyişməsi də mümkündür[7].

Bu sahədə sistemli tədqiqatlar aparan tanınmış alim F.Y.Səməndərovun bu mövqeyi ilə tam razılaşmaq lazımdır ki, cəza sisteminin elmi anlayışı, cəza

[5] Əliyev Ə. İ. İnsan hüquqları. Dərslik. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2013, s. 216.
[6] Hüseynov L. H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2002, s. 68.
[7] Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, "Şərq-Qərb", 2014, c. 140.

sisteminə daxil olan cəza növlərinin dairəsinin müəyyən edilməsi, cinayətlərə görə sanksiyaların qurulmasının vəziyyəti, cəza təyinində ümumi qaydalarla cəza təyini prinsiplərinin nisbəti, cəza təyinində cəzanı yüngülləşdirən və ağırlaşdıran halların təyin edilən cəzanın həddinə və növünə təsiri məsələlərinin hələ də kifayət qədər tədqiq edilməyən tərəfləri vardır[8]. Qeyd edilənlər Respublikamızda daim cəza-icra sistemində islahatlara, dəyişikliklərə zərurət olduğunu sübut edir. Belə dəyişikliklər həm təşkilati-texniki sahədə, həm də qanunvericilik bazasında aparılmalıdır. Cəza-icra sistemində baş vermiş dəyişikliklər yeni cəza-icra siyasətinin realizəsinin nəticəsidir. Bu, cinayətkarlıqla mübarizə sahəsində dövlətin ümumi siyasətinin qanunauyğun tarixi və müstəqil bir növüdür. Bilavasitə cinayətkarlıqla mübarizə siyasətindən meydana çıxan və dövlətin vahid siyasətinin tərkib hissəsi olmaqla, cəza-icra siyasəti siyasi-hüquqi münasibətlərin, hüquqi norma, ideya və baxışların sistemini özündə əks etdirir. Başqa sözlə, hüquq ədəbiyyatında qeyd edildiyi kimi, cəza-icra siyasəti cəzaların icrasının təmin edilməsi, məhkumların islahı, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayət əməllərinin törədilməsinin xəbərdarlığı üzrə dövlətin fəaliyyətinin məqsədlərini, prinsiplərini, strategiyasını, əsas istiqamətlərini, forma və metodlarını müəyyən edir[9]. Cəza cinayət törədən şəxsə fiziki əzab verilməsi və ya şərəf və ləyaqətinin alçaldılması məqsədinə xidmət etməməlidir. Cəzanın maksimal dərəcədə ədalətli və törədilən cinayətə tam uyğun olması, siyasi və ideoloji prinsiplərin deyil, fəlsəfi, hüquqi, ümumbəşəri baxışlar sisteminin mühüm rol oynaması xüsusi qeyd edilməlidir. Bu isə bir daha bu sahədə beynəlxalq-hüquqi standartların əhəmiyyətini əsaslandırır.

Yeni dövlətçilik şəraitində cəza-icra qanunvericiliyi özünün əsas xarakterik xüsusiyyətlərini (predmet, metod, məqsəd, vəzifə, hüquqi baza, struktur və realizə mexanizmi) köklü şəkildə dəyişmişdir. Cəza-icra hüququ da cəzaların icrası ilə bağlı çoxsaylı münasibətləri tədqiq etməklə, öz predmetini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Beynəlxalq hüquq normalarının təsiri nəticəsində milli cəza-icra qanunvericiliyimizdə təkmilləşən problemlərdən biri də alternativ cəzaların tətbiqi problemidir. Hal-hazırda bu tendensiya inkişaf etmiş dövlətlər praktikasında daha geniş yayılmışdır. Alternativ cəzalar tendensiyası Respublikamızda da tətbiq olunur. Bu tendensiyanın nəzəri əsasları AR Cinayət Məcəlləsində (CM) və digər hüquqi aktlarda təsbit olunur. AR Ali Məhkəməsi Plenumunun Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında 25 iyun 2003-cü il tarixli Qərarında məhkəmələrə tövsiyə olunur ki, azadlıqdan məhrumetmə cəza növünü təyin etməzdən öncə, azadlıqdan məhrumetmə ilə bağlı olmayan daha yüngül cəzaların təyin edilməsi imkanları nəzərdən keçirilməlidir.

Məhkumların cəzalarını çəkdikdən sonrakı həyatı ilə bağlı məsələyə xüsusilə diqqət yetirilməlidir. Belə ki, əksər beynəlxalq normalarda, həmçinin

[8] Səməndərov F.Y. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Bakı, Bakı Universiteti nəşriyyatı, 2009, c. 5.
[9] Quliyev C.M., Hümbətov M.H., Mustafayev N.İ. Azərbaycan Respublikasının cəza-icra hüququ (anlayışlar, qısa şərhlər və sxemlər). Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2012, s. 4.



xarici dövlətlərin qanunvericilik aktlarında cəza-icra siyasətinin əsas məqsədlərindən biri kimi məhkumların reabilitasiyası, yəni normal həyata qaytarılması məqsədi təsbit olunur. Bu problemin həllində təkcə penitensiar müəssisələr yox, digər orqanlar, həmçinin qeyri-hökumət təşkilatları da yaxından iştirak etməlidir. Əgər cinayətkarın reabilitasiyası baş tutmursa, bu zaman cinayətkardan yalnız qisas alma, daha dəqiq desək, onu azadlıqdan məhrum etmək və ya azadlığını məhdudlaşdırmaqla məsələyə yekun vurulur. Bu zaman həmin şəxsin yenidən cinayət törətməsi ehtimalı açıq olaraq qalır.

Bütövlükdə, cəza-icra münasibətlərinin tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlıq xüsusi aktuallıq kəsb edən məsələdir. Bu əməkdaşlıq universal və regional səviyyədə həyata keçirilir. Hər iki sferada əməkdaşlığın özünəməxsus xarakterik xüsusiyyətləri vardır. Cəzaların icrası sisteminə tətbiq edilən əməkdaşlıq nəticəsində məhkumlarla davranışa dair beynəlxalq standartlar kimi adlandırılan normalar işlənib hazırlanır və tətbiq edilir. Qeyd olunan standartlarda isə beynəlxalq cəza-icra praktikası və penitensiar sistemin humanist inkişafı tendensiyası cəmlənmişdir[10].

Beləliklə, məhkumlarla davranışın metod və vasitələrinə və cəza-icra qanunvericiliyinin vəziyyətinin dəyişməsinə beynəlxalq-hüquqi standartlar sisteminin təsir səviyyəsinin üzə çıxarılması, məhkumlarla davranış sferasında beynəlxalq standartlar və milli qanunvericilik aktlarının, həmçinin cəza-icra münasibətləri sahəsində universal və regional əməkdaşlığın müxtəlif aspektlərinin təhlili, eləcə də beynəlxalq və dövlətdaxili səviyyədə tənzimetməyə ehtiyacı olan sahələrdə yeni normaların qəbulu, o cümlədən dövlətdaxili mexanizmlərin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyələr irəli sürmək xüsusi aktuallıq kəsb edən məsələlərdən hesab olunur.

**Dissertasiya işinin obyekti** məhkumlarla davranış üzrə beynəlxalq-hüquqi standartların əks olunduğu milli cəza-icra qanunvericiliyinin formalaşdırılmasını və inkişafını şərtləndirən münasibətlər sistemidir.

**Dissertasiya işinin predmetini** milli cəza-icra hüququnun formalaşması və inkişafına beynəlxalq-hüquqi normaların təsirinin müəyyən edilməsi, cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının formalaşması və onun milli cəza-icra hüququna təsiri səviyyəsinin öyrənilməsi, cəza-icra hüququnun universal, regional, və dövlətdaxili normativ-hüquqi aktlarda öz təsbitini tapması, həmçinin AR qanunvericilik sisteminin təkmilləşdirilməsi baxımından xüsusilə əhəmiyyət kəsb edən cəza-icra hüququ sferasında beynəlxalq-hüquqi normaların milli qanunvericiliyə təsiri imkanlarının müəyyən edilməsi üzrə problemin təhlili təşkil edir.

**Dissertasiya işinin məqsədi** cəza-icra hüququ sahəsində beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqələrinin geniş və kompleks şəkildə araşdırılmasıdır. Cəza-icra hüququ sahəsində beynəlxalq və milli hüquqi normaların qarşılıqlı əlaqələri ilə bağlı məsələlərin elmi şəkildə araşdırılması, paralel olaraq, bu sahədə universal, regional və ikitərəfli beynəlxalq-hüquqi

[10] Костенко Н.И. Международная уголовная юстиция. Проблемы развития. М., Р Консулт, 2002, с. 391.

müqavilələrin müqayisəli şəkildə nəzərdən keçirilməsinə, xarici ölkələrin milli qanunvericiliklərinin və elmi ədəbiyyatlardakı mövcud fikir müxtəlifliklərinin ətraflı təhlil edilməsinə, insan hüquqlarının müdafiəsində mühüm istiqamət olan cəza-icra hüququnun beynəlxalq və milli hüquqi problemləri ilə bağlı mühüm elmi bazanın yaradılmasına, müvafiq sferada müasir və təkmil qanunvericilik sisteminin, son nəticədə isə insan hüquq və azadlıqlarının müdafiəsi kontekstində cəza-icra hüququnun təmin edilməsi, məhkumlarla davranışa dair səmərəliliyin artırılması üzrə mühüm təkliflərin və nəticələrin irəli sürülməsinə gətirib çıxarır.

Qeyd edilən məqsədə nail olmaq üçün **dissertasiya işində aşağıdakı vəzifələr** müəyyən edilmişdir:

- Cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının formalaşması və onun milli cəza-icra hüququna təsiri məsələlərinin təhlili;
- Cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliklə qarşılıqlı əlaqə xüsusiyyətlərinin nəzərdən keçirilməsi;
- Cəza-icra hüququnun spesifik prinsiplərinin formalaşması və inkişafında beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normalarının rolu məsələlərinin araşdırılması;
- Universal xarakterli beynəlxalq-hüquqi normalar və cəza-icra hüquq münasibətlərinin tənzimlənməsi probleminin nəzərdən keçirilməsi;
- Regional beynəlxalq aktlarda cəza-icra hüquq normalarının təsbit olunmasının əsas istiqamətləri və xüsusiyyətlərinin təhlili;
- Xarici dövlətlərin cəza-icra qanunvericiliyində cəza-icra məsələlərinin hüquqi tənzimlənməsi məsələlərinin təhlili;
- AR-də cəza-icra hüququnun tarixinin araşdırılması;
- AR-də cəza-icra qanunvericiliyinin formalaşması və inkişafında beynəlxalq-hüquqi normaların rolu və tətbiqi məsələlərinin təhlili;
- AR-in cəzaçəkmə müəssisələrində insan hüquqlarına riayət olunması probleminin araşdırılması;
- AR-in cəza-icra qanunvericiliyinin əsas inkişaf istiqamətlərinin müəyyən edilməsi.

**Dissertasiya işinin elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan hüquq elmində ilk dəfə olaraq, cəza-icra hüquq münasibətləri sahəsində beynəlxalq və milli (dövlətdaxili) hüququn qarşılıqlı əlaqələri ilə bağlı nəzəri və praktiki məsələlər, həmçinin azadlıqdan məhrumetmə yerlərində cəza çəkən məhkumların əsas hüquq və azadlıqlarının hüquqi tənzimlənməsi, eləcə də məhkumlarla davranış üzrə universal və regional beynəlxalq-hüquqi sənədlər müqayisəli şəkildə araşdırılmış, bu sahədə AR qanunvericiliyinin formalaşması və inkişaf xüsusiyyətləri təhlil edilmişdir. Doğrudur, bir sıra xarici hüquq ədəbiyyatlarında və ayrı-ayrı dövlətlər praktikasında qeyd edilən problemin təhlilinə həsr edilmiş elmi araşdırmalar mövcud olsa da, bu tədqiqatlar əsasən həmin dövlətlərin qanunvericiliklərinin təhlili istiqamətində qurulmuşdur. Bunları nəzərə alaraq, hazırkı tədqiqat problemə geniş və qlobal nöqteyi-nəzərdən yanaşır, AR milli qanunvericiliyinin beynəlxalq-hüquq normaları ilə müqayisəli şəkildə təhlili



aparılır, dünya dövlətlərinin milli praktikası öyrənilir, nəhayət AR-in bu sahədə milli qanunvericiliyinin təkmilləşdirilməsi ilə əlaqədar kifayət qədər mühüm təkliflər irəli sürülür.

Tədqiqatın elmi yeniliyi konkret olaraq müdafiəyə çıxarılan aşağıdakı **yeni elmi müddəalarla** ifadə olunur:

1. Cəza-icra hüququ insan hüquqlarının müdafiəsinə ən çox ehtiyac duyan sahədir. Cəzanın məzmununun cəzalandırmaq olmasına və onun insanları cinayət əməllərindən çəkindirən xüsusi bir vasitə olmasına baxmayaraq, cəzaların icrasında əsas məqsədlərdən biri də cəmiyyətdən təcrid olunmuş insanların hüquqlarını qorumaqla yenidən cəmiyyətə qaytarılması üçün tərbiyələndirməkdir. Cəza-icra hüququ ilə bağlı müddəalar həm beynəlxalq, həm də milli-hüquqi aktlarda öz təsbitini tapmaqla daha da inkişaf etmişdir. Bu xüsusiyyət cəza-icra hüququnun sistemli xarakterə malik olmasının göstəricisidir.

2. Cəza-icra hüquq münasibətlərinin beynəlmiləlləşməsi məsələsinə toxunarkən, ilk növbədə, cəza-icra hüquq münasibətləri sahəsində beynəlxalq əməkdaşlığın tarixinə və inkişaf mərhələlərinə nəzər yetirilməlidir. Cəzaların icrası və məhkumlarla davranış sferasında beynəlxalq əməkdaşlıq öz inkişafında mühüm mərhələlərdən keçmişdir. 1945-ci ildən, daha dəqiq desək, BMT-nin yaradılmasından sonrakı mərhələdə cəza-icra hüquq münasibətlərinin beynəlmiləlləşməsi daha da intensiv xarakter almışdır. Məhkumlarla davranış üzrə beynəlxalq standartların çoxu məhz bu təşkilat çərçivəsində və ya onun himayəsi altında qəbul edilmiş, sonradan regional təşkilatlar çərçivəsində daha da inkişaf etdirilmişdir.

3. Cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının formalaşması hüquq ədəbiyyatında fikir müxtəlifliyi ilə qarşılanır. Hesab edirik ki, müvafiq məsələ ilə bağlı fikir müxtəlifliyi beynəlxalq cinayət hüququnun formalaşması məsələsi ilə paralel və müqayisəli şəkildə öyrənilməlidir. Çünki cinayət və ya hüquq pozuntusu olmadan cəza olmur. Beynəlxalq cəza-icra hüququ beynəlxalq cinayət hüququ, xüsusilə də onun əsas məqsədlərindən biri olan cinayətkarlığın qarşısının alınması məsələsi ilə sıx bağlıdır. Bu zaman beynəlxalq cəza-icra hüququnun beynəlxalq cinayət hüququ ilə sıx qarşılıqlı əlaqələri müəyyən edilsə də, eyni zamanda qeyd edilməlidir kı, beynəlxalq cəza-icra hüququnun öz predmeti, məqsədi, subyekti, prinsipləri və fəaliyyət mexanizmləri vardır. Beynəlxalq cəza-icra hüququnun formalaşmasına əhəmiyyətli təsir milli cəza-icra hüququndan gəlmişdir.

4. Həm beynəlxalq, həm də milli cəza-icra hüququnun əsas vəzifəsi cəzaların icrası zamanı insan hüquqlarına riayət olunmasıdır. İstənilən halda insan hüquqlarının pozulması və ya ona riayət olunmaması cəzanın icrası yox, insanların cəzalandırılması, insanlara işgəncə verilməsi və ya kobud rəftar deməkdir. Cəza-icra hüququ müasir beynəlxalq hüquq qaydasının tərkib hissəsi olan insan hüquqlarının təmin edilməsi sistemində həyata keçirilməlidir. İnsan hüquqlarının təmin edilməsi isə beynəlxalq və milli hüquq normalarına əsaslanmaqla beynəlxalq-milli-hüquqi mexanizmlər vasitəsilə qarsılıqlı əlaqədə həyata

keçirilməli, özündə beynəlxalq hüquq normalarının ciddi milli-hüquqi implementasiyanı nəzərdə tutmaqla dövlətlərin bu sahədə milli hüquq sistemlərinin yaxınlaşmasını əsas götürməlidir.

5. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri, o cümlədən insan hüquqlarının spesifik prinsipləri əsasında milli cəza-icra hüququnun prinsipləri daim inkişaf edir və bu prinsiplər milli cəza-icra qanunvericiliyində təsbit olunur. Cəza-icra hüququnun inkişafı konkret istiqamətlərdə və sahələrdə beynəlxalq birliyin, o cümlədən dövlətlərin öhdəlikləri şəklində təsbit olunmalıdır. Bu zaman dövlətlərin milli qanunvericiliklərinin yaxınlaşması ilə bərabər, həm də cəza-icra hüququ problemlərinin birgə həll edilməsinə və cəza-icra hüququ normalarının realizəsi fonunda insan hüquqlarının daha real təmininə şərait yaranar.

6. Cəza-icra hüquq münasibətlərinin beynəlxalq normativ əsasını insan hüquqlarının müdafiəsinə dair universal və regional aktlar təşkil edir. Universal aktlar tənzimetmə predmetinə görə ümumi və xüsusi olmaqla iki yerə ayrılır. Ümumi aktlar bütövlükdə insan hüquqları sahəsində normaları, xüsusi aktlar isə konkret olaraq məhkumlarla davranışa dair normaları əks etdirir. Dövlətdaxili hüquqi aktlar isə hüquq normalarının realizəsi və səmərəliliyi nöqteyi-nəzərindən mühüm yer tutmaqla, beynəlxalq hüquq normalarına hörmət prinsipi əsasında formalaşdırılmalıdır. AR-də bu sahədə əsas dəyişikliklər 14 iyul 2000-ci il tarixdə yeni Cəzaların İcrası Məcəlləsinin qəbul edilməsi ilə başlanılmışdır.

7. AR-in cəza-icra qanunvericiliyinin formalaşması və daha da təkmilləşdirilməsində xarici dövlətlərin, əsasən də Avropa dövlətlərinin müsbət qanunvericilik təcrübəsindən istifadə etmək məqsədəmüvafiq olardı. Bu baxımdan xüsusilə xarici dövlətlərin cəza-icra qanunvericiliyində cəza-icra məsələlərinin normativ və konseptual əsasları, bu dövlətlərin cəza-icra hüquq sisteminin ümumi xarakteristikası, onların cəza-icra qanunvericiliyində müxtəlif növ cəzalar və onların icrası məsələsi, penitensiar sistemlər, bu dövlətlərdə məhkumlarla davranış üzrə beynəlxalq standartların realizəsi məsələlərinə xüsusi diqqət yetirilməlidir.

8. Hazırda Avropa dövlətlərinin praktikasında azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə üstünlük verilir. Respublikamızda bu məsələ ilə bağlı normativ baza və məhkəmə praktikası nəzəri cəhətdən mövcuddur. Lakin təcrübədə bu tendensiyanın inkişafı üçün daha ciddi və real addımlar atılmalıdır.

**Dissertasiya işinin nəzəri əsasları.** Dissertasiya işində həm cəza-icra hüququ (A.E.Qasımov, M.N.Hümbətov, İ.B.Ağayev, C.M.Quliyev və b.), həm beynəlxalq cinayət hüququ (N.A.Cəfərov, R.K.Məmmədov və b.), həm milli cinayət hüququ (F.Y.Səməndərov, İ.M.Rəhimov, K.N.Səlimov, B.S.Zahidov və b.) və həm də beynəlxalq hüquq (Ə.İ.Əliyev, L.H.Hüseynov, R.F.Məmmədov, Ə.İ.Sadıqov, A.İ.Mustafayeva, R.K.Məmmədov, K.R.Səlimov və b.) sahəsində tədqiqat aparan bir sıra tanınmış yerli hüquqşünas alimlərin əsərlərindən geniş istifadə olunmasını xüsusilə vurğulamaq lazımdır. Xarici alimlərdən, ilk növbədə, rus ailmlərindən A.İ.Zubkov, M.P.Melentyev, A.Y.Nataşev, İ.S.Noy, V.İ.Seliverstov, N.A.Struçkov, V.A.Utkin, İ.V.Şmarov, İ.A.Yefremova, S.M.Zubarev, S.M.Kurqanov, V.B.Malinin, P.Q.Ponamaryov, İ.D.Kazoçkin,



A.V.Serebrennikov, M.L.Lyaxov, A.F.Sizıy, N.İ.Kostenko, A.V.Naumov, İ.İ.Karpets, M.D.Şarqorodskiy, Y.İ.Kalinin; Qərbi Avropa və amerikan alimlərindən M.Bassiouni, J.Dressler, G.Raş, H.Paker, L.Hall, P.Robinson, J.Gibbs, V.Skott, H.Hart, R.Gross Samuel, M.Roberts, M.Koehler, V.Bek, H.Troendl, T.Fişer və başqalarının əsərlərindən müqayisəli şəkildə istifadə edilmişdir.

**Dissertasiya işinin tədqiqat metodu.** Dissertasiya işi nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsini, tədqiqatın predmetinin məzmun və formasını əks etdirən dialektik metodlara əsaslanır. Tədqiqat işində ümumi və xüsusi elmi-tədqiqat metodları: tarixi-hüquqi, müqayisəli-hüquqi, formal-məntiqi, sistem, konkret-sosioloji, statistik metodlardan istifadə edilmişdir.

Dissertasiya işinin nəzəri əsasını əsasən hüququn fəlsəfəsi, ümumi hüquq nəzəriyyəsi, cinayət və cəza-icra hüququ, beynəlxalq hüquq və insan hüquqları sahəsində elmi əsərlər təşkil edir.

**Dissertasiya işinin normativ bazasını** insan hüquqlarının müdafiəsi sahəsində qəbul edilmiş beynəlxalq sənədlər, xüsusilə İnsan hüquqları haqqında 1948-ci il tarixli Ümumi Bəyannamə, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair 1963-cü il tarixli BMT Bəyannaməsi, 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncə və digər qəddar, qeyri-insani və şəxsiyyəti alçaldan rəftar və cəzalardan bütün şəxslərin müdafiəsi üzrə 1975-ci il Bəyannaməsi, Din və etiqada görə ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğvinə dair 1981-ci il tarixli Bəyannamə, İşgəncə və digər qəddar, qeyri-insani və şəxsiyyəti alçaldan rəftar və cəzalara qarşı 1984-cü il Konvensiyası, 1955-ci il tarixli Məhbuslarla davranış üzrə Minimal Standart Qaydalar, 1979-cu il Hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərin davranış Məcəlləsi, 1984-cü il tarixli Ölüm cəzasına məhkum olunmuş şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsi Tədbirləri, Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair 1985-ci il tarixli Minimal Standartlar Qaydalar (Pekin Qaydaları), Azadlıqdan məhrum edilən yetkinlik yaşına çatmayanların müdafiəsinə dair 1990-cı il tarixli BMT Qaydaları və s. beynəlxalq sənədlər, eləcə də dünya dövlətlərinin və AR-in cəza-icra hüququ sahəsində milli qanunvericiliyi və müvafiq sahələrdə Respublikamızın ikitərəfli müqavilələri təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Dissertasiya işinin praktiki əhəmiyyəti ondadır ki, nəzəri ümumiləşdirmələr, nəticələr və təkliflər bu sahədə milli qanunvericiliyin beynəlxalq standartlara və ümumqəbulolunmuş prinsiplərə uyğunlaşdırılması, həmçinin azadlıqdan məhrum etmə cəzasının icrası zamanı qanunçuluğun möhkəmləndirilməsi və cəza-icra sisteminin heyətinin hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə cinayət və cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi və s. üçün istifadə oluna bilər. Daha sonra, dissertasiya işinin materialları Beynəlxalq hüquq, İnsan hüquqları, Cəza-icra hüququ sahəsində dərs (tədris, metodik) vəsaitlərinin, müvafiq proqramların hazırlanmasında, bu sahədə gələcək elmi tədqiqatlarda əhəmiyyətli hesab edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi AMEA İnsan Hüquqları İnstitutunda geniş müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə AR və Ukrayna Respublikasının nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

**I Fəsil "Milli cəza-icra hüququnun prinsip və normalarının formalaşması və inkişafında beynəlxalq hüququn rolu" adlanmaqla üç paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının formalaşması və onun milli cəza-icra hüququna təsiri ilə bağlı məsələlər tədqiq edilir. Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq zəruri və mütləqdir. Bu əməkdaşlığın məqsədi cinayətkarlığın qarşısının alınması, sülhün qorunub saxlanmasıdır. Cinayətkarlığın qarşısının alınması və aradan qaldırılması işində həmin cinayətə görə təyin edilən cəza, xüsusilə də bu cəzanın icrası məsələsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, cəzaların icrasında əsas məqsəd cinayəti törədən şəxsi islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır. Deməli, cinayətkarlıqla mübarizədə və onun qarşısının alınmasında beynəlxalq əməkdaşlıqla yanaşı, cəzaların icrası sahəsində də dövlətlərin beynəlxalq əməkdaşlığı, müvafiq sferada universal və regional mexanizmlərin fəaliyyəti zəruridir.

Tarixən cəmiyyətin inkişafı cinayətkarlıqla mübarizədə bəşəriyyəti tədricən tərbiyələndirmə işinə diqqət ayırmağa məcbur edirdi. Konfutsi, Pifaqor, Demokrit, Sokrat, Platon kimi qədim dünyanın filosofları cinayətkarlığın qarşısının alınmasında düzgün tərbiyələndirmə işinin aparılmasının əhəmiyyəti barədə fikirlər söyləmişlər. Bütövlükdə, cəza probleminə dair müxtəlif fikirləri 3 yanaşmadan müəyyən etmək olar: dövlətin cəzalandırmaq hüququ; cəzanın məzmunu və məqsədləri; cəzanın əxlaqi sübutları.

Cəza nəzəriyyəsində mərkəzi yeri onun məqsədlərinin müəyyən edilməsi tutur. Bu planda cəza nəzəriyyəsi 3 hissəyə: 1) mütləq, 2) nisbi, 3) qarışıq olmaqla ayrılır. Mütləq nəzəriyyələr – törədilmiş cinayətə görə mütləq cəzalanmanı nəzərdə tutur. Nisbi nəzəriyyələr – cəzada faydalılıq və məqsədəuyğunluğu nəzərdə tutur.



Qarışıq nəzəriyyələr – mütləq və nisbi nəzəriyyə arasında ortaq məxrəcin müəyyən edilməsinə istiqamətlənmişdir[11].

XVIII əsrin sonlarında yeni elm sahəsi – azadlıqdan məhrumetmə növündə cəzanın icrası haqqında elm – penitensiar elm (həbsxanaşünaslıq) formalaşdı. Bu elmin formalaşması və inkişafında Con Hovard və İeremiya Bentamın ideyaları mühüm rol oynamışdır.

Cinayətkarlıq və onunla mübarizənin inkişafı, bütövlükdə, cəza-icra münasibətlərinin və bu münasibətləri tənzimləyən normaların məcmusu olan cəza-icra hüququnun beynəlmiləlləşməsinə gətirib çıxarmışdır. Bu hadisələrin nəticəsində beynəlxalq cəza-icra hüququ konsepsiyası formalaşmışdır. Beynəlxalq cəza-icra hüququ ilə bağlı məsələlər getdikcə daha çox praktiki əhəmiyyət daşımağa başlayır. Dövlətlərarası ünsiyyətin sadələşməsi beynəlxalq cəza-icra hüququnun ayrıca hüquq sahəsi kimi formalaşmasına gətirib çıxarır. Beynəlxalq cəza-icra hüququnun formalaşmasında beynəlxalq cinayət hüququnun böyük təsiri olsa da, beynəlxalq cəza-icra hüququ beynəlxalq cinayət hüququnun tərkib hissəsi deyildir. Bizim fikrimizcə, beynəlxalq cəza-icra hüququna beynəlxalq hüququn ayrıca sahəsi kimi baxıla bilər. Bu fikri beynəlxalq cinayət hüququnun beynəlxalq hüququn ayrıca sahəsi olması məsələsi üzərində tədqiq etmək əhəmiyyətli olardı. Hüquq ədəbiyyatlarında yuxarıda qeyd etdiyimiz fikirlərlə zidd mövqelər də mövcuddur. L.N.Qalenskaya beynəlxalq cinayət hüququnu beynəlxalq hüquq elminin kompleks sahəsi kimi göstərir. Bu fikri M.Ş.Bassioni, D.Derbi, D.Başarov, Y.Dinşteyn, Q.Şvartsenberger kimi müəlliflər də müdafiə edir[12].

Beynəlxalq cəza-icra hüququ beynəlxalq cinayət hüququ, xüsusilə də onun əsas məqsədlərindən biri olan cinayətkarlığın qarşısının alınması məsələsi ilə sıx bağlıdır. Fikrimizcə, bu bağlılıq beynəlxalq cəza-icra hüququnu beynəlxalq cinayət hüququndan asılı hala salmır, çünki beynəlxalq cəza-icra hüququnun öz predmeti, məqsədi, subyekti, prinsipləri və fəaliyyət mexanizmləri var. Beynəlxalq cəza-icra hüququnun predmeti cəzaların icrası prosesində meydana çıxan dövlətlərarası münasibətlərdir. Beynəlxalq cəza-icra hüququnun məqsədi cəza-icra hüquq münasibətləri üzrə beynəlxalq sənədlərdə təsbit edilən normalara riayət olunmasının təmin edilməsidir. Subyekti isə dövlətlər və beynəlxalq təşkilatlardır.

Cəzaların icrası sahəsində beynəlxalq səviyyədə qəbul edilmiş normativ aktlar, qayda, tövsiyə və prinsiplər məhkumlarla davranışa dair beynəlxalq standartlar adını almışdır. Müxtəlif vaxtlarda qəbul edilən və hüquqi statusuna görə fərqlənən həmin standartlar beynəlxalq ictimaiyyətin İnsan hüquqları haqqında Ümumi Bəyannamə ilə bəyan edilən ümumqəbulolunmuş normalar ruhunda məhkumlarla davranışın metod və vasitələrinin maksimal dərəcədə koordinasiyasına doğru çalışmasını əks etdirir.

---

[11] Уголовно-исполнительное право. Учебник в двух томах. Том 1. Общая часть. Под общей ред. Ю.И.Калинина. 2-е изд., перераб. и доп. М., Рязань, Логос, 2001, с. 45.

[12] Галенская Л.Н. О понятии международного уголовного права. Советский ежегодник международного права, 1969. М., 1970.; Bassiouni M. Ch. Characteristics of International Criminal Law Conventions. International Criminal Law. N.Y., 1986, Vol. 1, p. 1.

Beynəlxalq cəza-icra hüququnun formalaşmasına əhəmiyyətli təsir milli cəza-icra hüququndan gəlmişdir. Milli cəza-icra hüququna anlayış verərkən, onun məqsədləri, funksiyaları, predmet və metodları müəyyən edilməlidir. Bu isə cəza-icra hüquq münasibətlərinin və cəza-icra qanunvericiliyinin sistem və normalarının tədqiqini tələb edir. Milli cəza-icra hüququ – AR hüquq sisteminin aparıcı sahələrindən biridir və maddi hüquq normalarının realizəsinə yönəlmişdir. Bu hüquq spesifik məqsədləri, predmet və tənzimetmə metoduna malik olmaqla, digərlərindən, o cümlədən hüququn qarışıq sahələrindən fərqlənir. Eyni zamanda, cəza-icra hüququ milli hüququn ümumi sisteminə daxildir. AR Cəzaların İcrası Məcəlləsinin (CİM) 2-ci maddəsinə əsasən cəzaların icrasında məqsəd məhkumları islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır.

**İkinci paraqrafda** cəza-icra hüququ sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliklə qarşılıqlı əlaqə xüsusiyyətləri tədqiq edilir. Cəza-icra hüququ normaları cəza-icra siyasətinin tələblərinə uyğun olaraq dövlət tərəfindən müəyyən edilən və müvafiq hüquqi aktlarda təsbit olunan, cəzaların icrası prosesində meydana çıxan ictimai münasibətləri tənzimləyən məcburi davranış qaydalarıdır.

Cəza-icra hüquq normaları bir neçə əsasda müxtəlif növlərə ayrılır. Sosial təyinatına görə: tənzimləyici, hüquq qoruyucu, xüsusi. Müəyyən edilmiş qaydanın xarakterinə görə: öhdəlik yaradıcı, qadağanedici, səlahiyyətverici, genişləndirici.

Dövlətdaxili cəza-icra qanunvericiliyi sisteminin əsasını Konstitusiya, Cəzaların İcrası Məcəlləsi, qanunlar və digər normativ aktlar təşkil edir. AR CİM-ə müvafiq olaraq, cəzaların icrası qanunvericiliyi Konstitusiya, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Cəzaların İcrası Məcəlləsi, qanunlar, Prezidentin fərman və sərəncamları və digər normativ-hüquqi aktlarından ibarətdir. AR-in cəzaların icrası qanunvericiliyində məhkumlarla davranışın ümumqəbulolunmuş standartları təsbit edilmiş, daha humanist və proqressiv beynəlxalq müqavilə və sazişlər ratifikasiya olunmaqdadır.

Beynəlxalq hüququn milli hüquq sistemlərinə təsiri daim artmaqdadır. Onun institut və prinsiplərində insani dəyərlərin prioritetliyini bəyan edən ümumdemokratik ideyalar təsbit edilir. Dövlətlər arasında siyasi, iqtisadi və digər əlaqələrin genişlənməsi hüquq sistemlərinin yaxınlaşmasına gətirib çıxarır. Müasir sivilizasiyalar özünə qapana bilməz, əlaqə və münasibətlərdən və bir-birlərini tanımaqdan imtina edə bilməzlər. Beynəlxalq əməkdaşlığın zəruriliyi, müasir dünyanın qlobal problemləri dünyanın əsas hüquq sistemlərinə diqqətin ayrılmasını və mövcud hüquqi problemlərə yeni baxışı tələb edir.

Dissertasiyada beynəlxalq hüquq normalarının realizəsinin beynəlxalq və dövlətdaxili mexanizmləri fərqləndirilir. Beynəlxalq mexanizm beynəlxalq mübahisələrin dinc yolla həllini və beynəlxalq səviyyədə normativ göstərişlərin pozulmasının qarşısının alınmasını nəzərdə tutur. Dövlətdaxili mexanizm dövlətlər tərəfindən beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə yönəlmiş beynəlxalq hüquq normalarının realizəsinin prosessual qaydalarını müəyyən edən dövlətdaxili



normaların məcmusunu əks etdirir. Beynəlxalq hüquq normalarının dövlətdaxili səviyyədə yerinə yetirilməsinin təmini məqsədilə müxtəlif terminlərdən istifadə olunur: implementasiya, resepsiya, transformasiya, inkorporasiya, göndəriş və s .

Azərbaycanın Avropaya inteqrasiyası ilə, cəza-icra qanunvericiliyi sferasında normaların beynəlxalq-hüquqi aktlara uyğunlaşdırılması prosesi başlandı. Əsas kardinal dəyişikliklər 2000-ci ildən sonra baş vermişdir. Məhz bu dövrdə Cəzaların İcrası Məcəlləsi qəbul edilmişdi. Əvvəlki AR Silahlı qüvvələrində intizam batalyonu haqqında Əsasnamə və AR-in İslah-Əmək Məcəlləsi qüvvədən düşmüşdür. Azərbaycanda vahid islah-əmək siyasətinin həyata keçirilməsi və istintaq təcridxanalarının fəaliyyətinin Avropa Şurasının standartlarına uyğunlaşdırılması məqsədilə 1999-cu il 9 oktyabr tarixində AR Daxili İşlər Nazirliyinin istintaq təcridxanalarının AR Ədliyyə Nazirliyinin tərkibinə verilməsi haqqında Prezident Fərmanı imzalanmışdır.

Müasir beynəlxalq hüquq sistemində penitensiar münasibətləri tənzimləyən sabit və müstəqil normativ aktlar məcmusu formalaşmışdır. Fikrimizcə, bu prosesin gələcək inkişafı dünya ictimaiyyətini vahid beynəlxalq penitensiar qanunvericiliyin hazırlanmasına sövq edir. Hazırda qüvvədə olan bir çox hüquqi aktlar belə vahid bir mexanizm üçün mənbə rolunda çıxış edə bilər.

**Üçüncü paraqrafda** milli cəza-icra hüququnun spesifik prinsiplərinin formalaşması və inkişafında beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normalarının rolu tədqiq olunur.

Beynəlxalq hüquq heç bir milli hüquq sisteminə daxil deyil. Onun tənzimetmə predmeti dövlətdaxili yox, beynəlxalq münasibətlərdir. İctimai münasibətlərin dinamikasının reallığı ondadır ki, dövlətdaxili hüquq normaları meydana çıxan hüquq münasibətlərini hər zaman tənzimləyə bilmir. İnsan hüquqlarına riayət edilməsi dövlətdaxili sərhədləri aşmış və bütün dünya ictimaiyyətinin qayğı obyektinə çevrilmişdir. Respublikamızın Qərbə inteqrasiyası, xüsusilə də Avropa Şurasına üzv qəbul olunmasından sonra məhkumların hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq sənədlərin milli qanunvericiliyə uyğunlaşdırılması məsələsi daha da intensivləşdi. Azərbaycanın müasir cəza-icra siyasəti beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərinə əsaslanır. Hüquq nəzəriyyəsində bu prinsiplər bütün hüquq sisteminin rəhbər başlanğıcları hesab olunur.

Cəza-icra qanunvericiliyi prinsiplərinin əsasında ümum insani dəyərlər dayanır. AR CİM-in 7-ci maddəsinə müvafiq olaraq, cəzaların icrası qanunvericiliyi qanunçuluq, humanizm, demokratizm, məhkumların qanun qarşısında bərabərliyi, cəzaların icrasının fərdiləşdirilməsi, məcburiyyət tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsiplərinə əsaslanır.

Cəza-icra qanunvericiliyinin prinsipləri ilk növbədə, AR CİM-in Xüsusi hissəsinin məzmun və quruluşunu müəyyən edir, bu hissədə cəzaların konkret növlərinin icrası ilə bağlı müddəalar təsbit edilir. İkincisi, bu prinsiplər AR CİM-in institut və normalarının məzmununa təsir göstərir, həmçinin digər qanunvericilik və digər qanun qüvvəli normativ-hüquqi aktlar üçün baza rolunu oynayır. Üçüncüsü,

cəza-icra qanunvericiliyinin prinsipləri normativ sistem vasitəsilə və bilavasitə hərəkət yolu ilə cəzaların icrası praktikasına təsir göstərirlər.

Cəza-icra hüququnun prinsipi – cəza-icra hüququnun sosial-praktiki mahiyyətini və keyfiyyət göstəricilərini əks etdirən hüquqi kateqoriyadır. İctimai münasibətlərin iştirakçılarına konkret qaydalar müəyyən etməsə də, həmin münasibətlərin tənzimlənməsinin ümumi istiqamətlərini müəyyən edir.

Məzmun baxımından prinsiplər dövlətin cəza-icra hüququnun xarakterinə və cəzaların icrası zamanı ictimai münasibətlərin tənzimlənməsinə əsas hüquqi baxışın rəhbər hüquqi ideyalarını əks etdirir. Bu hüquqi ideyalar prinsip olmamışdan öncə, cəza-icra hüququnun prinsiplərinin formalaşmasının əsas mənbəyi olan cəza-icra siyasətində öz əksini tapır. Digər hüquq sahələrində olduğu kimi cəza-icra hüququnun prinsipləri cəza-icra hüququnun strukturunu təşkil edir. Məhz prinsiplərdə cəza-icra hüququnun elementlərinin qanunauyğun əlaqəsi əks olunur. Cəza-icra qanunvericiliyinin prinsiplərini 3 qrupda təsnifləşdirmək olar: ümumi hüquqi; sahələrarası və sahəvi.

Ümumi hüquqi prinsiplərə qanunçuluq, humanizm və demokratizm prinsipləri aid edilir. Adıçəkilən prinsiplər ümumi xarakter daşıyır və Konstitusiyada təsbit edilir. Sahələrarası prinsiplər hüququn qarşılıqlı əlaqədə olan sahələrinə aid olduğundan belə adlanır. Həmin sahələr: cinayət hüququ, cinayət-prosessual hüququ və cəza-icra hüququdur.

Sahəvi prinsiplər sırf cəzaların icrası ilə bağlıdır. Cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın həyata keçirilməsi təkcə müvafiq beynəlxalq normaların mövcudluğu və təşkilati mexanizmlərin səmərəli fəaliyyəti ilə xarakterizə olunmur. Bu istiqamətdə həm də sahəvi rəhbər başlanğıcların təsbit olunması və əldə əhbər tutulması da mühüm əhəmiyyət kəsb edir.

Bu kateqoriyadan olan prinsiplərə cəzaların icrasının fərdiləşdirilməsi, məcburiyyət tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsipləri daxildir.

**II Fəsil "Beynəlxalq hüquqda və milli (dövlətdaxili) qanunvericilikdə cəza-icra hüquq normalarının təsbiti: müqayisəli təhlil" adlanır və üç paraqrafı özündə təsbit edir.**

**Birinci paraqrafda** universal xarakterli beynəlxalq-hüquqi normalar və cəza-icra hüquq münasibətlərinin tənzimlənməsi problemi tədqiq edilmişdir.

Məhkumlarla davranışa dair beynəlxalq standartlar dövlətlərarası əməkdaşlıq, həmçinin insan hüquqlarına riayət edilməsi sferasında formalaşır. Həmin standartlar cəzaların icrası üzrə dünya təcrübəsini özündə əks etdirir. Cəzaların icrası sisteminə tətbiq edilən belə əməkdaşlıq nəticəsində müasir penitensiar nəzəriyyədə məhkumlarla davranışa dair beynəlxalq standartlar kimi adlandırılan normalar işlənib hazırlanır və tətbiq edilir. Qeyd olunan standartlarda beynəlxalq cəza-icra praktikası və penitensiar sistemin humanist inkişafı tendensiyası cəmlənmişdir. Cəzaların icrasına dair beynəlxalq standartlar sistemi kifayət qədər genişdir. Cəza-icra



məsələlərinin nizamlanmasına dair qüvvədə olan universal beynəlxalq aktlar sisteminə ümumi və xüsusi xarakterli aktları daxil etmək olar.

Ümumi xarakterli aktlar aiddir: İnsan hüquqları haqqında 1948-ci il tarixli Ümumi Bəyannamə, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair 1963-cü il tarixli BMT Bəyannaməsi, 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında və Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktlar, İşgəncə və digər qəddar, qeyri-insani və şəxsiyyəti alçaldan rəftar və cəzalardan bütün şəxslərin müdafiəsi üzrə 1975-ci il Bəyannaməsi, Din və etiqada görə ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğvinə dair 1981-ci il tarixli Bəyannamə, İşgəncə və digər qəddar, qeyri-insani və şəxsiyyəti alçaldan rəftar və cəzalara qarşı 1984-cü il Konvensiyası və s.

İnsan hüquqları haqqında 1948-ci il tarixli Ümumi Bəyannamənin ayrı-ayrı maddələri cəza-icra hüquq münasibətləri ilə bağlı məsələləri tənzimləyir. Bəyannamənin 2-ci maddəsinə müvafiq olaraq, Bəyannamədə təsbit edilən hüquq və vəzifələr istisnasız olaraq hər kəsə aid edilir. Bəyannamə cəza tədbiri kimi işgəncə və onunla bağlı digər hərəkətləri rədd edir. 5-ci maddəyə müvafiq olaraq, heç kim işgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftar və cəzaya məruz qalmamalıdır. Bəyannamənin bəzi müddəaları bilavasitə məhkumlara aiddir. 9-cu maddədə isə qeyd edilir ki, heç kim özbaşınalıqla həbsə, tutulub saxlanılmaya və sürgün edilməyə məruz qala bilməz.

1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsi yaşamaq hüququnu hər bir şəxsin ayrılmaz hüququ kimi təsbit edir. Bu hüquq qanunla qorunur. Heç kim özbaşınalıqla bu hüquqdan məhrum edilə bilməz. Paktın 7-ci maddəsinə əsasən heç kim işgəncəyə, qeyri-insani və ya şəxsiyyəti alçaldan cəza və ya davranışa məruz qala bilməz, əsasən də insanı, öz razılığı olmadan tibbi və ya elmi sınaqlara cəlb etmək qadağandır.

Pakt cəza-icra məsələlərinə münasibətdə bir sıra əsas hüquqları bəyan edir. Bu mənada 9-cu maddə xüsusilə vurğulanmalıdır. Burada azadlıq və şəxsi toxunulmazlıq hüququ bəyan olunur: heç kim özbaşınalıqla həbs edilə və ya həbsdə saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir. Həbs olunan hər bir kəsə həbs zamanı onun həbs olunmasının səbəbləri barədə məlumat verilir və irəli sürülən istənilən ittiham təcili qaydada ona bildirilir. Cinayət ittihamı ilə həbs edilən və ya tutulub saxlanılan hər bir şəxs təcili qaydada məhkəməyə və yaxud məhkəmə hakimiyyətinin həyata keçirilməsinin qanunla həvalə edildiyi digər vəzifəli şəxsə çatdırılır və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya azad edilmə hüququna malikdir. Məhkəmə araşdırmasını gözləyən şəxslərin həbsdə saxlanılması ümumi qaydada olmalıdır. Lakin azadlığa buraxılma məhkəməyə getməyə, məhkəmə araşdırmasının istənilən mərhələsinə gəlməyə və zəruri hallarda hökmün icrası üçün gəlməyə təminat verilməsindən asılı hala salına bilər. Həbs və ya dustaq edilmə nəticəsində azadlıqdan məhrum edilən hər kəs işinin məhkəmədə araşdırılması hüququna malikdir. Eyni zamanda, qeyri-qanuni həbs və ya dustaq edilmənin qurbanı olan hər bir kəs iddia qüvvəsində olan kompensasiya hüququna malikdir.

Xüsusi aktlara aiddir: 1955-ci il tarixli Məhbuslarla davranış üzrə Minimal Standart Qaydalar, 1979-cu il Hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərin davranış Məcəlləsi, 1982-ci il tarixli Səhiyyə işçilərinin, xüsusilə də həkimlərin məhbus və saxlanılan şəxslərin işgəncə və digər qəddar, qeyri-insani və ya şəxsiyyəti alçaldan davranış və cəzalardan müdafiəsi sahəsində roluna münasibətdə tibbi etika prinsipləri, 1984-cü il tarixli Ölüm cəzasına məhkum olunmuş şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsi Tədbirləri, Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair 1985-ci il tarixli Minimal Standartlar Qaydalar (Pekin Qaydaları), 1988-ci il tarixli Bu və ya digər formada tutulan və ya həbsə məruz qalan şəxslərin müdafiəsi prinsiplərinin Məcmusu, Həbs edilmə ilə bağlı olmayan tədbirlərə dair 1990-cı il tarixli Minimal Standart Qaydalar (Tokio Qaydaları), Azadlıqdan məhrum edilən yetkinlik yaşına çatmayanların müdafiəsinə dair 1990-cı il tarixli BMT Qaydaları, Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınmasına dair 1990-cı il tarixli BMT rəhbər Prinsipləri (Ər-Riyad Prinsipləri) və s.

Məhkumlarla davranışa dair xüsusi beynəlxalq standartlar əksər dövlətlərin penitensiar fəaliyyətin və məhkumların hüquq və azadlıqlarına riayət olunmasına yönəlmiş birgə fəaliyyətinin nəticəsidir. 1955-ci il tarixli Məhbuslarla davranış üzrə Minimal Standart Qaydalar –Cinayətkarlığın qarşısının alınması və qanun pozucuları ilə rəftara dair BMT-nin 1955-ci ildə Cenevrədə keçirilmiş birinci Konqresində qəbul olunub və İqtisadi və Sosial Şuranın 31 iyul 1957-ci il tarixli 663 C (XXIV) və 13 may 1977-ci il tarixli 2076 (LXII) saylı qətnamələri ilə bəyənilib. Minimal Standart Qaydalar məhbuslarla davranışa dair əvvəllər mövcud olmuş (Beynəlxalq Penitensiar Komissiya tərəfindən hazırlanmış və 1934-cü ildə Millətlər Cəmiyyəti tərəfindən bəyənilmiş) standartların bazasında hazırlanmışdır.

**İkinci paraqraf** regional beynəlxalq aktlarda cəza-icra normalarının təsbit olunmasının əsas istiqamətləri və xüsusiyyətləri probleminə həsr olunmuşdur.

İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarının universal müqavilə mexanizmləri ilə yanaşı, müxtəlif regionların özünəməxsus xüsusiyyətlərini özündə əks etdirən regional müqavilə mexanizmləri də mövcuddur. Regional müqavilə mexanizmlərinin spesifikliyi ondadır ki, müəyyən bir region üçün xarakterik olan cəhət digər regionda olmaya bilər. Məsələn, islam dini qaydalarının mövcud olduğu ərəb dövlətləri üçün xas qaydalar Afrikada və ya Amerikada rast gəlinməyə bilər. İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair prinsipial müddəalar regional xarakterli beynəlxalq-hüquqi aktlarda da nəzərdə tutulmuşdur. Regional kontekstdə mövcud olan beynəlxalq sənədlərdə cəza-icra normalarının təsbit olunması xüsusi əhəmiyyət kəsb edən məsələdir.

Avropa qitəsində belə sənədlərin əksəriyyəti 1949-cu ildə yaradılmış Avropa Şurasının himayəsi altında işlənib hazırlanmış və qəbul edilmişdir. Cinayətkarlıqla mübarizədə regional əməkdaşlığın əlaqələndirilməsində Avropa Şurasının təşkilati-institusional mexanizmlərinin fəaliyyəti də xüsusi qeyd edilməlidir. Doğrudur, bəzi regional beynəlxalq təşkilatlardan fərqli olaraq, belə mexanizmlərin az şəkildə yaradılmasına baxmayaraq, hər halda beynəlxalq-hüquqi praktikaya nmüəyyən töhfələr bəxş etməkdədir.



Avropa Penitensiar Qaydaları – Avropada belə standartların işlənib hazırlanmasına ilk cəhd 1973-cü ildə göstərilmişdir. O zaman Avropa Şurası özünün R(73)5 saylı Qətnaməsi ilə Məhbuslarla davranışın Avropa Minimal Standart Qaydalarını bəyənmişdir. Bu sənəd 1955-ci il Məhbuslarla davranış üzrə Minimal Standart qaydaların Avropa şəraitinə uyğunlaşdırılmasına yönəlmişdir. Avropa Şurası Nazirlər Komitəsinin 11 yanvar 2006-cı il tarixli iclasında qəbul edilmiş və 2 saylı Qətnamə ilə üzv-dövlətlərə tövsiyə edilmiş Avropa Penitensiar Qaydalarının yeni mətni struktur baxımından 108 maddə, 9 hissədən ibarətdir. Ümumiyyətlə, Avropa Penitensiar Qaydalarında bu sahədə prinsiplərin əks olunması xüsusi qeyd edilməlidir. Daha sonra, Qaydalarda penitensiar müəssisələrin idarə olunması qaydasına xüsusi diqqət yetirilmişdir. Belə ki, məhbusların qəbulu və qeydiyyatı, onların bölüşdürülməsi və təsnifatı, azadlıqdan məhrumetmə yerlərində binalar, şəxsi gigiyena, paltar və yataq ləvazimatı, məhbusların qidalanması, tibb xidməti, intizam və cəza, təhlükəsizlik tədbirləri, məlumat və şikayətlərin verilməsi qaydası, xarici aləmlə əlaqə, dini və mənəvi təminat, məhbusların əşyalarının saxlanılması, məhbusların yerlərinin dəyişdirilməsi məsələləri ilə bağlı normalar müəyyən edilmişdir.

Avropadan fərqli olaraq, Amerika regionunda insan hüquq və azadlıqlarının müdafiəsi sistemi nisbətən zəngin xarakterə malik deyildir. İnsan hüquqları üzrə Amerikaarası Konvensiya 22 noyabr 1969-cu ildə keçirilmiş İnsan hüquqları üzrə Amerikaarası Konfransda qəbul edilmiş və 18 iyul 1978-ci il tarixdə qüvvəyə minmişdir. Bu Konvensiyanın 5-ci maddəsinə əsasən, hər kəs öz fiziki, ruhi və mənəvi toxunulmazlığına hörmət qoyulması hüququna malikdir. Heç kim işgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəzalara məruz qalmalı deyil.

Cəza-icra məsələləri ilə bağlı müddəalar 1987-ci il tarixli İşgəncə əleyhinə Amerikaarası Konvensiyada və İnsan hüquqları üzrə 1988-ci il tarixli Amerikaarası Konvensiyaya Əlavə Protokolda (San-Salvador Protokolu) da təsbit olunmuşdur.

Şimali Amerika regionu ilə yanaşı, Cənubi Amerikada da insan hüquqlarının müdafiəsi mexanizmləri cəza-icra, məhkumlarla davranış problemləri üzərində effektiv təsirə malikdir. Bu sahədə 1948-ci il İnsan hüquq və vəzifələri haqqında Amerika Bəyannaməsini xüsusilə qeyd etmək lazımdır. Bu sənəddə insanların geniş hüquqları ilə yanaşı bir sıra vacib vəzifələri də təsbit olunmuşdur. Bəyannamə, iştirakçı-dövlətlər tərəfindən məcburi hüquqi qüvvəyə malik bir sənəd kimi qəbul edilir.

Asiya ölkələrindən fərqli olaraq, Afrika dövlətləri iştirakçı-dövlətlərin vəzifələrini və Qitənin spesifik xüsusiyyətlərini nəzərə alan İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyasını qəbul edərək 1981-ci ildə regional bir təşkilat yaratdılar. Afrika Xartiyasında öz müqəddəratını təyin etmə, müstəmləkəçilik və xaricilərin hökmranlığı ilə mübarizə, sosial-iqtisadi və mədəni inkişaf problemləri, təbii sərvət və ehtiyatlar üzərində suveren hüquqların həyata keçirilməsi məsələləri ön plana çəkilmişdir. Xartiyada əsas insan hüquqları və azadlıqları müəyyən edilmişdir. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Əvvəlcədən qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kim azadlıqdan məhrum edilə bilməz.

Xüsusilə də, heç kəs əsassız saxlanılma və həbsə məruz qala bilməz (maddə 6). Qanuna riayət etmək şərtilə hər kəsin birləşmək azadlığı hüququ vardır. Fərdi hüquqlarla yanaşı, Xartiyada kollektiv hüquqlar da öz əksini tapmışdır: xalqların öz müqəddəratını müəyyən etməsi hüququ, təbii resursların suverenliyi, xalqların inkişafı hüququ, sülh hüququ, əlverişli ətraf mühit hüququ.

Digər regionlarda olduğu kimi Afrika qitəsi də cəza-icra münasibətləri sferasında regional əməkdaşlığın inkişafında öz töhfəsini verməkdədir. Afrika qitəsində cəza-icra məsələləri və ümumilikdə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində əsas mexanizm məhz bu təşkilatdır. Təşkilatın təsis aktının 3-cü maddəsinə əsasən məqsədlərinə insan hüquq və azadlıqlarının müdafiəsi məsələsi ilə bağlı mühüm müddəalar daxil edilmişdir.

**Üçüncü paraqrafda** xarici dövlətlərin cəza-icra qanunvericiliyində cəza-icra məsələlərinin hüquqi tənzimlənməsi məsələləri təhlil edilir. Hüquq tarixi, fəlsəfə tarixi və hüququn ümumi nəzəriyyəsinin öyrənilməsi zamanı müqayisəli hüquq metodunun tətbiqi xarici, həmçinin milli hüququ daha yaxşı və dərindən başa düşməyə imkan verir. Qanunverici milli hüququn təkmilləşməsi üçün müqayisəli hüquqdan istifadə edir.

ABŞ cinayət qanunvericiliyi (federal və ştatların) cəza anlayışını nəzərdə tutmur və bu məsələnin həllini məhkəmə praktikası, əsasən də doktrinanın üzərinə buraxır. Amerikan hüquqşünaslarının fikrincə, cəza anlayışı özü-özlüyündə müəyyənləşir. Bəzi müəlliflər şərh və istinadlardan istifadə etməklə, cəzaya anlayış verməyə çalışır. C.Dressler qeyd edir ki, bütün kontekstlərə uyğun olan cəza termininə anlayış vermək olmaz, əgər anlayış verilərsə onun tənqidə məruz qalması mütləqdir. Əgər şəxsə cəza təyin etmək səlahiyyətli olan dövlətin vəzifəli şəxsi ona qəsdən əzab verirsə, həmin şəxs cəzaya məruz qalır[13]. ABŞ tədqiqatçıları hesab edirlər ki, cəzanın ümum çəkindirici effekti aydın deyil, çünki cəzanın səmərəsini qorxunun üzərində qurmaq əhəmiyyətsizdir[14].

ABŞ-da ölüm cəzası, azadlıqdan məhrumetmə, cərimə, əmlak müsadirəsi və sınaq müddəti kimi cəzalar geniş tətbiq olunur. Ölüm cəzası ABŞ qanunvericiliyi (federal və bir çox ştatların) ilə nəzərdə tutulur. Buna baxmayaraq, ABŞ-da ölüm cəzasına münasibət birmənalı deyil. Ümumiyyətlə, ABŞ-da cəza-icra sistemi xərcləri kifayət qədər çoxdur. XX əsrin 80-ci illərində büdcənin müvafiq sferada olan yükünü azaltmaq məqsədilə həbsxanaların özəlləşdirilməsi və kütləvi şəkildə özəl cəza çəkmə müəssisələrinin tikintisi başlandı. Daha dəqiq desək, həbsxanalara malik olan kompaniyalar federal hökumət və dairə hakimiyyəti ilə müqavilə bağlayır və dövlət standartlarına uyğun olaraq, müəyyən sayda məhkumları saxlamaq öhdəliyi götürürlər. Hər bir məhkuma görə kompaniya büdcədən qarantiya olunmuş pul məbləği alır. Bu sistemin əleyhdarları hesab edir ki, aparıcı kompaniyalar məhkumların şəxsində ucuz işçi qüvvəsini istismar edir, dövləti isə öz istəklərinə uyğun qərarlar qəbul etməkdə asılı hala salırlar.

[13] Dressler J. Understanding criminal law. Matthew Bender, New York, 1994, p. 3-4.
[14] La Fave R. Wayne, Scott W. Austin. Criminal law. Second ed. St. Paul. Minn., West Publishing Co., 1991, p. 24-25.



Almaniyanın Cinayət Məcəlləsində cəza anlayışı müəyyən edilmir. Doktrina adətən cəzanı onun məqsədlərinə münasibətdə müəyyən edir. Bu baxımdan Alman cinayət hüququ doktrinasının nümayəndələri hələ XIX əsrin əvvəllərində cəzanın mütləq və nisbi nəzəriyyələrini müdafiə etməklə, 2 qrupa ayrılmışdı. Mütləq nəzəriyyənin tərəfdarları cəzanın əsas məqsədini qisasda, nisbi nəzəriyyənin tərəfdarları isə qorxu meyarında görürlər. Alman cinayət hüququ doktrinasına görə, cəza təqsirli şəkildə törədilmiş cinayət əməlinin müntəzəm hüquqi nəticəsidir. Almaniyanın Cinayət Məcəlləsinin Ümumi hissəsinin 3-cü bölməsində əməlin hüquqi nəticələrinə dair müddəalar təsbit edilir. Həmin bölmənin 1-ci fəslində hüquqi təbiətinə görə əsas hesab edilən cəzanın 2 növü: azadlıqdan məhrumetmə (38 və 39-cu paraqraflar) və pul cəriməsi (40 və 43-cü paraqraflar) qeyd edilir. Əlavə cəza kimi nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə göstərilir. Almaniya cəza-icra sistemində əlavə cəzaların tətbiqi bu sistemin spesifik xüsusiyyətidir. Əlavə cəzalara: müəyyən vəzifə tutmaq hüququndan, publik seçkilər nəticəsində əldə edilmiş hüquqlardan istifadə hüququndan, publik seçmək və səsvermə hüququndan, seçmək və seçilmək hüququndan məhrumetmə daxildir.

Almaniyanın həbsxanaları açıq və qapalı tipli olmaqla 2 yerə ayrılır. Açıq tipli müəssisələr minimal məhdudiyyətlər və divarların yoxluğu, yüksək təhlükəsizlik səviyyəsi və silahlı mühafizə sistemi ilə xarakterizə olunur. Açıq müəssisələrdə zorakılıqla bağlı olmayan cinayətləri törədən məhkumlar və az müddətli cəza çəkən məhkumlar saxlanılır. Qapalı müəssisələr yüksək təhlükəsizlik və mühafizə sistemi ilə təchiz olunur. Lakin bu tip müəssisələrdə də bəzən zəif təhlükəsizlik nəzərə çarpır, belə ki, azyaşlı uşaqları olan qadın məhkumlara uşaqlarını müəyyən yaş həddinə çatana kimi özü ilə saxlamağa icazə verilir. Belə kameralarda həmin kateqoriyadan olan məhkumlara müəyyən sərbəstlik verilir.

İngilis qanunvericiliyində cəza və onun məqsədlərinə anlayış verilməsə də, cinayət hüququ nəzəriyyəsində bu məsələlər uzun müddət ingilis filosof və hüquqşünaslarının tədqiqat obyekti olmuşdur. Bu məsələlərdə, ilk növbədə, fəlsəfi xarakterli problemlər çıxış edir. Məşhur Britaniya filosofu H.Hartın fikrincə, cəza, hüquqla məcburi müəyyən edilmiş sərhədlər daxilində müxtəlif sferalarda mümkün fərdi azadlığı maksimum dərəcədə müəyyən edən sosial nəzarət metodudur. Cəzanın əsas hərəkəti müəyyən davranış standartlarının bəyan edilməsi və bu standartların pozulmasına görə cəza tədbirlərinin təyin edilməsidir[15].

Müasir ingilis qanunvericiliyi 5 kateqoriya cəzanı nəzərdə tutur: ölüm cəzası, azadlıqdan məhrumetmə (müddətli və ömürlük), azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar (sınaq müddəti təyin etmə, cəmiyyət üçün ödənişsiz xidmətin göstərilməsi, müəyyən saatlarda yaşayış yerini tərk etməmək), maliyyə xarakterli cəzalar (cərimə, kompensasiya, müsadirə), yetkinlik yaşına çatmayanlar üçün cəzalar.

Fransa qanunvericiliyində cəzaya anlayış verilmir, onun məqsədləri müəyyən edilmir, yalnız cəza sistemi təsbit edilir. Cəza və onun məqsədləri

[15] Hart H. Prolegomenon to the principles of punishment. New York, Oxford, 1960, p. 21-22.

haqqında elmlə cinayət hüququ üzrə nəzəriyyəçilər məşğul olur. Fransız cinayət hüquq nəzəriyyəsində cəza problemi üzrə 2 əsas konsepsiya: müasir neoklassisizm və yeni sosial müdafiə konsepsiyaları mövcuddur. Fransa cinayət hüququnda azadlıqdan məhrumetmə, məhkumun əmlak hüquqlarının, əmək hüquqlarının və digər hüquq və azadlıqlarının məhdudlaşdırılması kimi cəza növləri vardır. Fransanın penitensiar sistemi Ədliyyə Nazirliyinin tərkib hissəsinə daxildir və bilavasitə inzibati orqan olan "Həbsxana Administrasiyasına" tabedir. Struktur baxımından Fransanın penitensiar sistemini 9 regional bölmədən, dəniz departamenti və ərazilərlə məşğul olan bir missiyadan və Həbsxana Administrasiyasının milli məktəbindən ibarətdir.

Dissertasiyada bu sahədə digər dövlətlərin (Rusiya Federasiyası və s.) də qanunvericiliyi geniş və ətraflı təhlil edilnişdir.

**III Fəsil "Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyində beynəlxalq hüquq normalarinin tətbiqi: əsas xüsusiyyətləri və istiqamətləri" adlanmaqla üç paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** Azərbaycan Respublikasının cəza-icra hüququnun tarixi, o cümlədən Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyində beynəlxalq hüquq normalarının tətbiqinin əsas xüsusiyyətləri araşdırılmışdır.

Azərbaycanın cəza-icra hüququ mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Cəza-icra hüququnun yaranması və inkişaf tarixini növbəti tarixi mərhələlərə ayırmaq olar: XIX əsrin birinci yarısından 1918-ci ilə kimi olan dövrü əhatə edən Çar Rusiyası dövründə cəza-icra hüququ və onun inkişaf meylləri; 1918-1920-ci illəri əhatə edən Azərbaycan Demokratik Cümhuriyyəti dövründə cəza-icra hüququ; Sovet hakimiyyəti dövründə cəza-icra hüququ və cəza-icra qanunvericiliyi (bu dövrü şərti olaraq 2 mərhələyə: a) 1920-1960-cı illər və b) 1960-1990-cı illərə ayırmaq olar.); 1991-ci ildən başlayan Müstəqil Azərbaycanda cəza-icra hüququ və qanunvericiliyinin formalaşması mərhələsi.

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikası elan edildikdən sonra hüquq-mühafizə orqanlarının fəaliyyətini bütünlükdə Azərbaycan xalqının və milli dövlətçiliyimizin mənafeyinə tabe etmək mümkün oldu. Həmin dövrdə Bakıdakı həbsxanaların vəziyyəti Bakı dairə məhkəmə prokurorunun Ədliyyə Nazirinə 23 oktyabr 1918-ci il tarixli təqdimatında şərh olunmuşdur[16].

Demokratik Cümhuriyyətin mövcudluğu dövründə penitensiar sferada əsasən Ədliyyə Nazirliyi Həbsxanalar Şöbəsi fəaliyyət göstərirdi. Bu qurumun əsas vəzifəsi həbsxana müəssisələri sisteminin fəaliyyətinə rəhbərlik etmək idi.

Sovet hakimiyyəti dövründə cəza-icra hüququ 2 hissədən ibarətdir: 1920-1960 və 1960-1990-cı illər. Birinci mərhələdə Azərbaycanda Sovet hakimiyyətinin ilk illəri cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən əsas normativ sənədlər bunlar idi: Məhkəmə haqqında 1917-ci ildə verilmiş Dekret; 1919-cu ildə verilmiş cinayət hüququnun əsaslarına dair rəhbər göstərişlər və 1922-ci il tarixli Cinayət Məcəlləsi.

[16] Qasımov A.E. Azərbaycanda cəza-icra hüququnun yaranması və inkişaf mərhələləri. Bakı, 2010, s. 134-135.



İkinci mərhələnin ən uğurlu addımlarından biri 1970-ci ildə yeni İslah-Əmək Məcəlləsinin qəbul edilməsi idi. Azərbaycan SSR Ali Soveti 23 dekabr 1970-ci il tarixdə Azərbaycan SSR İslah-Əmək Məcəlləsinin təsdiq olunması və qüvvəyə minməsi haqqında qərar qəbul etdi. Struktur baxımdan Məcəllə 9 bölmə, 24 fəsil, 134 maddədən ibarətdir. Bu Məcəllədə vəkillərin məhkumlarla görüşü ilə bağlı xüsusi maddə nəzərdə tutulmuşdu. Həmin maddəyə əsasən, azadlıqdan məhrumetmə cəzasını çəkən məhkumlara hüquqi yardım göstərmək üçün məhkumların özlərinin və ya onların yaxın qohumlarının, yaxud da ictimaiyyət nümayəndələrinin yazılı ərizəsi üzrə vəkillərə məhkumlarla görüşmək imkanı verilir. Azərbaycan SSR-in 1970-ci il İslah-Əmək Məcəlləsi 1997-ci ilin mart ayına kimi qüvvədə olmuş və bir çox əlavə və dəyişikliklərə məruz qalmışdı.

1990-1993-cü illərdə və hal-hazırda da davam edən Ermənistanın dövlətimizə təcavüzü, müstəqilliyin ilk illərində daxili problemlər, müharibə şəraitində olan Azərbaycanın iqtisadi, siyasi, sosial və digər sferalarına mənfi təsir göstərirdi. Hətta, müharibə dövründə islah-əmək müəssisələrinin işçiləri hərbi əməliyyatlarda iştirak edirdi. Bütün bu amillər penitensiar xidmətin və ümumilikdə cəza-icra münasibətlərinin zəif templə inkişafına yol açırdı.

1993-cü ildə Ümummili lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, 1994-cü ildə müvəqqəti atəşkəsin bağlanması və həmin ildə Əsrin müqaviləsinin imzalanması ölkədə siyasi və iqtisadi sabitlik yaratdı. Avropaya inteqrasiya sahəsində mühüm addımlar atıldı. Belə tədbirlərdən biri ölkədə məhkəmə orqanları qərarlarının icrası sistemini təkmilləşdirmək, bu sahədə işin təşkilini yaxşılaşdırmaq, cəza-icra işini humanistləşdirmək və bu sahəni Avropa Penitensiar Qaydalarına uyğunlaşdırmaq məqsədilə verilmiş 9 yanvar 1993-cü il 399 №-li Prezident Fərmanı idi. Həmin Fərmanla Daxili İşlər Nazirliyinin İslah İşləri İdarəsinin tabeliyində olan bütün cəzaçəkmə müəssisələri (istintaq təcridxanaları istisna olmaqla), Daxili qoşunların tərkibində olan və islah-əmək müəssisələrində mühafizə və nəzarət funksiyalarını həyata keçirən 7535 saylı mühafizə batalyonu, 6500 saylı Alay, Bakı şəhəri Polis İdarəsinin tərkibinə daxil olan islah işləri müfəttişləri balansda olan əmlakı ilə birlikdə AR Ədliyyə Nazirliyinin tərkibinə verildi.

1993-cü ilin iyun ayında Azərbaycan ölüm hökmlərinin icrası üzərində moratorium qoymaqla çox böyük bir məsuliyyəti üzərinə götürdü. Həmin vaxt 1 saylı Bayıl İstintaq Təcridxanasında ölüm hökmünün icrasını gözləyən 128 nəfər var idi. 22 yanvar 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev ölüm cəzasının bir cəza növü kimi Cinayət Məcəlləsindən çıxarılması təşəbbüsü ilə Milli Məclisə müraciət etdi. Bu müraciəti əsas tutaraq Milli Məclis Cinayət, Cinayət-Prosessual və İslah-Əmək məcəllələrinə müvafiq dəyişikliklər edilməsi haqqında 10 fevral 1998-ci ildə qərar qəbul etdi. Azərbaycan 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın II Protokoluna qoşularaq Şərqdə və islam dünyasında ilk dəfə ölüm cəzasının tətbiqinə qarşı çıxdı.

1997-ci illə müqayisədə 1998-ci ildə islah-əmək müəssisələrinin sayı 14-dən 16-ya çatdırılmışdı. Yeni cəzaçəkmə müəssisələrinin tikilməsi obyektiv

səbəblərdən irəli gəlirdi. Əvvəllər islah əmək müəssisələrində mövcud olan sıxlıq aradan qaldırılmalı idi, ikincisi, məhkumlar üçün Avropa Penitensiar Qaydalarının tələbləri səviyyəsində şərait yaratmalı idi.

1998-ci il yanvar ayının 20-də AR Prezidenti Heydər Əliyev Azərbaycan və Avropa Şurası arasında əməkdaşlığın dərinləşməsi sahəsində tədbirlər haqqında Sərəncam imzaladı. Həmin sənədin 2.2-ci maddəsində AR ilə Avropa Şurası arasında 1998-ci il üçün əməkdaşlıq proqramı üzrə Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, Mülki-Prosessual Məcəlləsi layihələrinin hazırlanması və Avropa Şurası ekspertlərinin iştirakı ilə Avropa ölkələrində ümumilikdə qəbul edilmiş standartlara və normalara uyğunluğu baxımından ekspertizanın təmin edilməsi qeyd edilmişdir.

Sərəncamın 3.2-ci maddəsində penitensiar sistemin və ailə işləri üzrə hüquq münasibətlərində, xüsusilə təslimetmə məsələlərində hüquqi yardımın göstərilməsi barədə beynəlxalq icraata dair təcrübənin öyrənilməsi məsələsi də qeyd edilmişdir. 14 iyul 2000-ci il tarixdə AR-in Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Qanun qəbul edildi. Yeni qəbul edilmiş Məcəllədə cəzaçəkmənin daha da humanistləşdirilməsi istiqamətində xeyli yeniliklər vardır. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkməli olan məhkumların dairəsi xeyli genişlənmişdir. Ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər cəzalarını məntəqə tipli cəzaçəkmə müəssisələrində çəkməlidirlər. Yeni Məcəllədə azadlıqdan məhrum etmə cəzasına alternativ cəzaların tətbiqinə daha geniş yer verilsə də, bu istiqamətdə iş davam etdirilməlidir. Yeni qanunvericilikdə ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların dairəsi xeyli genişlənmişdir. Məcəllə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə 5 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkməsini müəyyən etmişdir.

**İkinci paraqrafda** Azərbaycan Respublikasının cəzaçəkmə müəssisələrində insan hüquqlarına riayət olunması problemi tədqiq edilir.

Məhkum həbsxanaya göndərilərkən onun malik olduğu əsas insan hüquqları saxlanılır. İnsanın əsas şəxsi hüquqlarına: yaşamaq hüququ, azadlıq hüququ, şərəf və ləyaqətin qorunması hüququ, şəxsi toxunulmazlıq hüququ, şəxsi həyata müdaxilə etməmək, mənzil toxunulmazlığı, şəxsi və ailə sirrinin qorunması, yazışma sirri, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququ, yerdəyişmə azadlığı, yaşayış yeri seçmək azadlığı, fikir və söz azadlığı, vicdan azadlığı, milliyyətin və danışıq dilinin müəyyən edilməsi azadlığı daxildir. Ətraflı təsnifat beynəlxalq-hüquqi aktlara əsaslanır.

Məhkumun şəxsi azadlığını məhdudlaşdıran cəzaların bir növü olan azadlıqdan məhrumetmə yalnız məhkumun məhkəmənin hökmündə göstərilən müddətdə islah müəssisəsində yerləşdirilməsi deyil, həmçinin ümumi müəyyən



edilmiş üsullarla onun mülki hüquqlarından istifadədən məhrum edilməsindən ibarətdir. Məhkumun şəxsi azadlıqlarını məhdudlaşdıran cəzalara verilən anlayışların mərkəzində insan və cəmiyyət üçün ən mühüm və zəruri şəxsi və sosial nemət olan azadlıq dayanır. Məhkumun şəxsi azadlıqlarının məhdudlaşdırılması ilə bağlı cəzaların təyin və icra edilməsi zamanı məhkum bütövlükdə cəmiyyətdən deyil, onun məhkum olunmasınadək yaşadığı sosial mühitdən, ailə üzvləri, yaxın qohumlarından əvvəlki işlədiyi kollektivdən və maraq dairəsində olan digər şəxslərdən təcrid olunur ki, bu da cəmiyyətdən tam təcrid edilmə kimi qiymətləndirilməlidir.

AR CİM-in 52-64-cü maddələrini əhatə edən VIII fəsli azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası ilə bağlı məsələləri tənzimləyir. Məcəllənin 52-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslər cəzanı bir qayda olaraq, yaşayış yerinə yaxın ərazidə yerləşən xüsusi müəssisələrdə çəkirlər. Bu cəza növündə cəza çəkən şəxslər nəzarət altında olurlar. Məhkumlara cəzanın icrası yeri üzrə inzibati ərazi vahidində yerləşən ali, orta ixtisas təhsil müəssisələrində qiyabi təhsil almağa icazə verilir. Azadlığın məhdudlaşdırılması növündə cəza çəkən şəxslərlə bağlı digər məsələlər də bu fəsildə təsbit edilmişdir.

Cəzasını həbsxanada çəkən şəxslər azadlığının məhdudlaşdırılması ilə bağlı məhrum olduğu hüquqlardan başqa, digər hüquqlarından istifadəni saxlayır. Həbsxana rəhbərliyi və işçi heyəti bu prinsipdən irəli gələn nəticələrə münasibətdə daha diqqətli olmalıdır. Məsələn, işgəncə və qəddar, qeyri-insani və şəxsiyyəti alçaldan tədbirlərin tətbiqinə tamamilə qadağa qoyulmuşdur. Qeyd etmək lazımdır ki, belə qadağa təkcə fiziki və mənəvi zorakılığı deyil, ümumilikdə məhbusun saxlanma şəraitini nəzərdə tutur. Məhkumlar penitensiar müəssisənin işçiləri tərəfində normal rəftar olunmaq hüququna malikdir. Məhkumlar qəddar və ya şəxsiyyəti alçaldan rəftara məruz qalmalı deyil. Məhkumlara məcburiyyət tədbirləri qanun əsasında tətbiq edilməlidir. Onların həyat və sağlamlığını təhlükəyə qoyan tibbi və digər təcrübələrə məruz qalmalı deyil.

İslah müəssisələrində saxlanılan və qohum olmayan məhkumlar arasında yazışma islah müəssisəsinin administrasiyasının razılığı ilə həyata keçirilir. Müəyyən hallarda, məsələn: əgər ailədə ciddi problem olarsa; başqa işlə bağlı məhkəməyə iddia verilərsə; əgər məhkum azadlığa çıxdıqdan sonra özünə iş və yaşayış yeri təmin etmək istəyirsə, məhkum ödənişsiz məktubun göndərilməsini tələb edə bilər. Avropa Penitensiar Qaydalarının preambulasında qeyd edilir ki, bu sənəddə əsas diqqət məhbusların insani dəyərlərinə hörmət edilməsinə verilir. Qanun bu hüquqdan istisnaya yol vermir, o, şəxsin, hətta azadlıqdan məhrumetmə növündə cəza çəkdikdə belə ləyaqətinin müdafiəsini həyata keçirir. AR CİM-in 10.2.1-ci maddəsinə əsasən məhkum cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkir. Cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. Məhkumlar qəddar və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmamalıdırlar. Məhkumlara məcbur etmə tədbirləri yalnız qanuna əsasən tətbiq edilə bilər.

Məhkumların məhkəməyə müraciət etmək hüququ təmin edilməlidir və şərti olmamalıdır. AR cəza-icra qanunvericiliyinə müvafiq olaraq, məhkumların təklif, ərizə və şikayətləri yazılı və şifahi verilə bilər. Azadlıqdan məhrum edilmiş şəxslərin təklif, ərizə və şikayətləri cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən göndərilir. Digər cəza növlərinə məhkum edilmiş şəxslər təklif ərizə və şikayətlərini sərbəst göndərirlər. Məhkumların cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxslərinin qərar və hərəkətlərinə dair təklif, ərizə və şikayətləri həmin qərarların və hərəkətlərin icrasını dayandırmır. Hər bir azadlıqdan məhrum edilən şəxsin, ilk növbədə yetkinlik yaşına çatmayanların hüquqi yardımdan istifadə etmək imkanına malik olması məsələsinə xüsusilə diqqət yetirilməlidir.

AR CİM-in 9.2-ci maddəsinə əsasən cəzaların icrası zamanı məhkumlara dair AR Cinayət, Cinayət-Prosessual məcəllələri, bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşdırmalar və istisnalarla onların AR vətəndaşlarına mənsub olan hüquq və azadlıqlarına təminat verilir. Məhkumlar qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, hüquq və azadlıqlardan irəli gələn vəzifələr daşıyırlar.

**Üçüncü paraqrafda** Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyinin əsas inkişaf istiqamətləri tədqiq edilir.

Respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsi onun çoxlu sayda müxtəlif müqavilələrə qoşulmasına gətirib çıxarmışdır. Azərbaycan əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunmuş ümumi beynəlxalq müqavilələrdən olan 19 dekabr 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın, 19 dekabr 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta birinci Fakultativ Protokolun, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta 15 dekabr 1989-cu il tarixli ikinci Fakultativ Protokolun, 4 noyabr 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və onun 1, 4, 6, 7 saylı Protokollarının iştirakçısıdır.

1998-ci il fevralın 3-də AR Prezidenti Respublikada ölüm cəzasının ləğv edilməsi ilə əlaqədar Respublikanın Milli Məclisinə müraciət etmişdir. AR Milli Məclisi Azərbaycanda ölüm cəzasının ləğv olunması ilə əlaqədar AR Cinayət, Cinayət-Prosessual və CİM-ə dəyişikliklər və əlavələr edilməsi haqqında 10 fevral 1998-ci il tarixli Qanun qəbul etmişdir. Bu qanunla ölüm cəzası ləğv olunaraq cəza sistemindən çıxarıldı, ömürlük azadlıqdan məhrum etmə isə müstəqil cəza növü kimi keçmiş CM-in 21-ci maddəsində müəyyən edilən cəzanın sisteminə daxil edildi. Həmin Qanuna və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakultativ Protokoluna qoşulmaq barədə AR Qanununa görə müharibə dövründə və ya müharibə təhlükəsi mövcud olduqda ağır cinayətlərə görə ölüm hökmünün tətbiqi imkanı saxlanılmışdır.

Beləliklə, ölüm cəzasının ləğv olunması ilə əlaqədar həyata keçirilən hüquqi islahatlar insanların yaşamaq hüququnun təmin olunması ilə bərabər, cəzanın effektivliyinin artırılmasına real şərait yaratmışdır. Azərbaycanın Avropaya inteqrasiyası ilə, cəza-icra qanunvericiliyi sferasında normaların beynəlxalq-hüquqi



aktlara uyğunlaşdırılması prosesi başlandı. 12 dekabr 2000-ci il tarixdə «Məhkum olunmuş şəxslərin verilməsi haqqında» Avropa Konvensiyasına AR-in qoşulması barədə Qanun imzalandı. AR 1983-cü il 21 mart tarixli Avropa Konvensiyasına müvafiq bəyanatlar və qeyd-şərt ilə qoşulmuşdur. Bəyanatlar vətəndaşlıq, verilmə üçün sorğu və verilməni sübut edən sənədlər Azərbaycan dilinə tərcümə olunmaqla ingilis və ya fransız dilində təqdim olunma, məhkum olunmuş şəxsin onun ərazisindən bütün tranzit keçidi barədə məlumat verilməsi, Konvensiya müddəalarının icrası ilə əlaqədar Ədliyyə Nazirliyindən və diplomatik kanallardan istifadə və s. məsələləri əhatə edir.

Son illər Avropada həbsxana əhalisinin sayının azaldılması tendensiyası hökm sürür. Bu problemin həllində əsasən azadlıqdan məhrumetmə cəzalarının alternativ cəza növləri ilə əvəzləşdirilməsi üsulundan istifadə olunur. Bu tendensiya ilk dəfə Həbs edilmə ilə bağlı olmayan tədbirlərə dair 1990-cı il tarixli Minimal Standart Qaydalarda (Tokio Qaydaları) öz əksini tapsa da, Avropa Şurasının bir sıra sənədlərində (Cəzalar və azadlıqdan məhrumetməyə alternativ tədbirlər haqqında Tövsiyələr və s.) daha da genişləndirilmişdir.

Alternativ cəzalar tendensiyası Respublikamızda da tətbiq olunur. AR Ali Məhkəməsi Plenumunun Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında 25 iyun 2003-cü il tarixli Qərarında məhkəmələrə tövsiyə olunur ki, azadlıqdan məhrumetmə cəza növünü təyin etməzdən öncə, azadlıqdan məhrumetmə ilə bağlı olmayan daha yüngül cəzaların təyin edilməsi imkanları nəzərdən keçirilməlidir. AR cəzaların icrası qanunvericiliyi çox mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Belə ki, dövlətimizin uzun illər boyu xarici təcavüzlərə məruz qalması, işğal edilməsi onun müstəqil qanunvericilik sisteminin, eləcə də cəzaların icrası qanunvericiliyinin formalaşması və inkişafı üçün də maneəyə çevrilmişdir.

Yekun olaraq belə bir əsaslandırılmış fikir irəli sürülür ki, AR-in cəza-icra qanunvericiliyinin formalaşması və daha da təkmilləşdirilməsində xarici dövlətlərin, əsasən də Avropa dövlətlərinin müsbət qanunvericilik təcrübəsindən istifadə etmək məqsədəmüvafiq olardı. Bu baxımdan xüsusilə xarici dövlətlərin cəza-icra qanunvericiliyində cəza-icra məsələlərinin normativ və konseptual əsasları, bu dövlətlərin cəza-icra hüquq sisteminin ümumi xarakteristikası, onların cəza-icra qanunvericiliyində müxtəlif növ cəzalar və onların icrası məsələsi, penitensiar sistemlər, bu dövlətlərdə məhkumlarla davranış üzrə beynəlxalq standartların realizəsi məsələlərinə diqqət yetirilməli, son nəticədə onların ciddi elmi-praktiki əsasları da öyrənilməlidir.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Məhkumlarla rəftarın beynəlxalq standartları və formaları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, №1 (21), s. 50-54.

2. Avropa penitensiar qaydaları məhkumların hüquqlarının müdafiəsi vasitəsi

kimi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, №2 (22), s. 40-44.
3. Yetkinlik yaşına çatmayan hüquq pozucuları ilə rəftara dair beynəlxalq standartların dövlətdaxili qanunvericilikdə təsbiti. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, №4 (24), s. 12-17.
4. Международные стандарты обращения с осужденными и законодательство Азербайджанской Республики об испольнении наказаний: проблемы взаимосвязи. Наука I Правоохорона (Украина), 2011, №1, с. 102-108.
5. Cəza icra qanunvericiliyinin formalaşması və inkişafında beynəlxalq hüquq normalarının rolu. 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq-elmi praktik konfransın (13-14 dekabr 2012-ci il) materialları. I cild. Bakı, Bakı Universiteti nəşriyyatı, 2013, s. 269-272.
6. Milli cəza icra qanunvericiliyinin formalaşması və inkişafında beynəlxalq hüququn əsas fəaliyyət istiqamətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, №2 (34), s. 14-52.
7. Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyi və beynəlxalq hüquq normaları: qarşılıqlı əlaqəyə dair yeni baxışlar və tendensiyalar. Nəqliyyat hüququ, 2014, №3, 54-65.



## РЕЗЮМЕ

Диссертационная работа на тему «Уголовно-исполнительное законодательство Азербайджанской Республики и международное право», представленная Аббасовым Тогрулом Вагиф оглу на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека», является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новые научные положения и имеющей очень важное значение с точки зрения изучения международно-правовых проблем в сфере уголовного права и уголовно – исполнительного законодательства Азербайджанской Республики, а также в области защиты прав человека. Диссертационная работа сформирована на основе сравнительного анализа международной договорной практики, законодательств различных государств, включая законодательство Азербайджанской Республики, а также существующего в юридической литературе разнообразия мнений.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования, которая называется «Роль международного права в формировании и развитии принципов и норм национального уголовно-исполнительного права», состоит из 3 параграфов. В этой главе анализируется такие важные вопросы как формирование международных норм в сфере уголовно-исполнительного права, особенности взаимосвязи международно-правовых норм и внутригосударственного законодательства в сфере уголовно-исполнительного права, роль общепризнанных норм и принципов в развитии и формировании специфических принципов уголовно-исполнительного права.

Вторая глава диссертационной работы называется «Отражение уголовно-исполнительных норм в международном и национальном законодательстве: сравнительный анализ». В этой главе, состоящей из 3 параграфов, проанализированы такие важные и актуальные вопросы, как проблемы регулирования международно-правовых норм универсального характера и отношений в уголовно-исполнительном праве, основные направления и особенности отражения уголовно исполнительных правовых норм в международных актах, правовое регулирования уголовно-исполнительных-проблем в уголовно-исполнителнительном законодательстве зарубежных стран.

Третья глава диссертационного исследования называется «Применение международно-правовых норм в уголовно-исполнительном законодательстве Азербайджанской Республики». В этой главе, состоящей из 3 параграфов, проанализированы история уголовно-исполнительного права Азербайджанской Республики, основные особенности применения норм международного права в заонодательстве Азербайджанской Республики, проблемы соблюдения прав человека в местах лишения свободы и наконец, основные направления развития уголовно-исполнительного законодательства Азербайджанской Республики.

В заключительной части диссертационного исследования приведены важнейшие предложения и выводы автора, полученные в результате проведенного исследования, отмечена их теоретическая и практическая значимость с точки зрения системы международного и национального (внутригосударственного) нормативного права.

## SUMMARY

Togrul Vagif oglu Abbasov`s dissertation work "Legislation of Azerbaijan Republic in criminal-executive law and international law" for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation 5603.01 –"International law; human rights" is independent, creative and completed work. Containing brand new provisions, the dissertation work is of paramount importance for analysis of international legal problems of criminal law, general analysis of correlated international and domestic legal problems of execution of punishment of the Republic of Azerbaijan .The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in legal literature, on legislation of different countries, and on international treaties` experience.

Dissertation work contains introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

The first chapter is called "Role of international law in the formation and development of the principles and norms of the national penitentiary law" and is comprised of 3 parts. The following issues have been analysed in the first chapter: formation of norms of international standards in the field of penitentiary law, especially the relationship of international law and national legislation in the sphere of Penitentiary Law, the role of the universally recognized norms and principles in the development and formation of specific principles of Penitentiary Law.

The second chapter is titled "Reflection of penal norms in international and national law" and is comprised of 3 parts. The following issues are discuused in the chapter: universal international legal norms and problem of regulation of penitentiary norms, main features and directions of reflection of penitentiary norms in regional documents, legal regulation of penitentiary norms in criminal enforcement legislation of foreign states.

The third chapter called "The application of international legal norms in the criminal executive legislation of the Republic of Azerbaijan: main features and directions", is comprised of 3 parts and is dedicated to the following issues: history of criminal executive legislation of the Republic of Azerbaijan, main features of application of international legal norms in the criminal executive legislation of the Republic of Azerbaijan, problem of adherence to the main principles and norms of human rights in penitentiary organizations and at last, main features of development of criminal executive legislation of the Republic of Azerbaijan .

The conclusion part of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and especially dissertation work plays an important theoretical and practical role for the domestic and international legislative system.





**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**


***На правах рукописи***


**ТОГРУЛ ВАГИФ оглы АББАСОВ**


# УГОЛОВНО-ИСПОЛНИТЕЛЬНОЕ ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И МЕЖДУНАРОДНОЕ ПРАВО

**Специальность: 5603.01 – «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ – 2014**